# Qəbələ şəhəri sürətli tərəqqi dövrünü yaşayır

Son illər Qəbələdə abadlıq tikinti işləri uğurla gedir. Sosial-iqtisadi layihələrin icrası Qəbələ şəhərinin simasını tamamilə dəyişərək yeniləşdirir. Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarında Qəbələ ilə bağlı nəzərdə tutulan tədbirlərin sistemli şəkildə həyata keçirilməsi rayonun kompleks inkişafına zəmin yaradır. Bu sahədə müasir şəhərsalma prinsipləri əsas götürülür. Yüksək zövqlə görülən işlər şəhər sakinlərinin və qonaqların böyük marağına səbəb olur. Şəhərdə hər iş zərgər dəqiqliyi ilə ölçülüb-biçilir, onun ansamblında, ümumi görünüşündə yad, qondarma elementlər tapmaq çətindir. Bir sözlə, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramları Qəbələyə yeni həyat verib. Hər yanda tikinti-quruculuq işləri getdikcə geniş miqyas alır. Bu sahədə küçə və meydanlarda aparılan genişləndirmə işləri diqqəti daha çox cəlb edir. Son 5-6 ildə Heydər Əliyev prospektində, 28 May, Nizami, Səməd Vurğun, Həzi Aslanov, Hüseyn Cavid və Sahil küçələrində aparılan yenidənqurma işləri şəhərimizə xüsusi yaraşıq verir. Hazırda Seyid Əzim Şirvani, İsmət Qayıbov küçələrində tikinti işləri başa çatdırılmışdı. Belə ki, küçə kənarlarındakı köhnə və yararsız hasarlar müasir memarlıq baxımından yenidən tikilmiş, küçələrin kənarlarındakı yaşayış evlərinin dam örtükləri dəyişdirilmiş yararsız qapı və darvazalar milli ornamentlərlə işlənmiş, yeniləri ilə əvəzlənmişdir. Bu, yeni qapılar və darvazalar bir sənət əsəri kimi küçələrə yaraşıq verir. Uzunluğu 900 metr, eni 12 metr olan S. Ə. Şirvani və uzunluğu 800 metr, eni 10 metr olan İ. Qayıbov küçələrinin hər iki tərəfində piyadaların rahatlığı üçün yeni səkilər qurulmuşdur.

Səkilərə, küçələrə asvalt döşənəcək, yaşıllıq zolaqlarının salınmasına fikir veriləcək. Hər iki küçədə köhnə elektrik, su, rabitə xətləri dəyişdirilərək yeniləşdirilmişdir. Bu işləri sitstemli şəkildə aparılmasında peşəkar sənətkarlar böyük əmək sərf etmişlər. Onların əməyi sayəsində sözü gedən küçələr görkəmli prospektlərə çevrilib. Onlar burada görülən hər bir tikinti-quruculuq işlərində milli memarlıq üslubuna üstünlük vermişlər. Həmin tikinti-quruculuq işlərində 100 nəfərə yaxın qəbələli usta və fəhlə işlə təmin edilib.

Hazırda şəhərin Musabəyov küçəsində yenidənqurma işləri sürətlə davam edir. Bu küçədə də piyadaların rahatlığı üçün yeni səkilər quraşdırılacaq, elektrik, su, rabitə xətləri yeniləşdiriləcək, küçə boyu yaşıl zolaqlar salınacaq, küçə və səkilərə asfalt döşənəcək və s. küçə ətrafındakı evlərin dam örtüyü yeni materialla əvəzlənəcək. Bütün görülən yeni işləri şəhər sakinləri razılıqla qarşılayırlar.

Ölkə başçısı cənab İlham Əliyevin Qəbələyə səfərləri hər dəfə rayonumuzun sosial-iqtisadi və mədəni həyatında mühüm keyfiyyət dəyişiklikləri ilə müşayiət olunur. Keçən ilin sentyabrın 22-də Prezident İlham Əliyevin Qəbələyə səfəri də bu qəbildən oldu. Prezident rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə Qəbələdə görülən tikinti abadlıq işlərini yüksək qiymətləndirərək dedi. «Bu gün Qəbələdə tikilən otellər ən yüksək səviyyədədir. Yeni binaların hamısı müasir standartlara cavab verir və istirahət etmək üçün çox gözəl imkanlar var. Qəbələ, eyni zamanda, mədəniyyət mərkəzinə çevrilir. Ənənəvi musiqi festivalları keçirilir və qonaqların sayı artır. Xarici qonaqlar Qəbələ ilə tanış olub vətənə döndükdə, əlbəttə ki, öz təəssüratlarını bölüşürlər. Beləliklə, bu bölgəyə, bu şəhərə maraq daha da artır».

Prezident cənab İlham Əliyevin bu yüksək qiyməti sayəsində ölkəmizin digər şəhər və rayonları kimi Qəbələ şəhəri də bu gün sürətli tərəqqi dövrünü yaşamaqdadır.

**Aslan CƏLİLOV.**

# Görülən işlər bizi arxayınlaşdırmır

Ölkəmizdə ərzaq təhlükəsizliyinin təminatı dövlətin iqtisadi siyasətinin mühüm tərkib hissəsidir. Odur ki, dövlətin ardıcıl şəkildə həyata keçirdiyi bu mühüm əhəmiyyət kəsb edən iqtisadi siyasətinin məntiqi nəticəsidir ki, kənd təsərrüfatının bütün sahələri ilbəil inkşaf edir, məhsul istehsalında yüksək göstəricilər əldə edilir. Bu gün dövlətin göstərdiyi qayğı və diqqətdən, kənd təsərrüfatının inkişafı üçün yaradılan əlverişli şəraitdən ruhlanan kəndli daha həvəslə işləyir. Təbii ki, indi kəndli çəkdiyi zəhmətin müqabilində daha çox gəlir əldə edir və daha firavan yaşayır.

Rayonumuzda kənğ təsərrüfatının müxtəlif sahələri ilə yanaşı, heyvandarlığın inkişafına da xüsusi əhəmiyyət verilir. Ölkədə, o cümlədən Qəbələdə aparılan uğurlu islahatlardan sonra rayonumuzda iribuynuzlu və xırdabuynuzlu heyvanların baş sayı xeyli artmış, eyni zamanda ət, süd, yun və yumurta istehsalı da artıqlaması ilə yerinə yetirilir. Cari ilin birinci rübünün yekununa görə iribuynuzlu mal-qaranın sayı 48327 başa, xırdabuynuzlu heyvanların sayı isə 218.766 başa çatmışdır. Sözsüz ki, mal-qaranın, davarların sağlam inkişafında baytarlıq xidmətinin də rolu olmuşdur.

Qəbələ rayon baytarlıq idarəsinin xidmət etdiyi ərazi kifayət qədər böyükdür. Hazırda rayonda baytarlıq xidmətini həyata keçirən idarənin qəsəbə və kəndlərdə 23 baytarlıq məntəqəsi fəaliyyət göstərir. Burada çalışan peşəkar mütəxəssislər baytarlıq xitmətinin işlərini müasir elmi tələblər səviyyəsində qurmağa çalışırlar. Bu xidmət işində mütərəqqi texnologiyaların tətbiqinə də üstünlük verilir. Eyni zamanda idarəmizin maddi-texniki bazası möhkəmləndikcə həyata keçirilən baytarlıq xidmətinin keyfiyyəti və işin səmərəsi yaxşılaşır, müsbət nəticələr verir. İdarəmizdə zəruri vaksinlərlə və avadanlıqlarla təminat da normal səviyyədədir.

2015-ci ildə rayon baytarlıq idarəsi tərəfindən hazırlanmış epizootiya əleyhinə mübarizə və müalicə-profilaktika tədbirləri planına əsasən baytarlıq xidmətinin mütəxəssisləri iribuynuzlu, xırda buynuzlu, təkdırnaqlı heyvanlarda, donuzlarda qarayara, dabaq, çiçək, itlərdə quduzluq, quşlarda nynkasl «H» elozota və digər iti xəstəliklər əleyhinə profilaktik tədbirlər həyata keçirmişlər. Bütövlükdə, bu ilin dörd ayı ərzində baytarlıq mütəxəssisləri tərəfindən 48.170 baş iribuynuzlu, 221.970 baş xırdabuynuzlu heyvanlar arasında qarayara xəstəliyinə qarşı peyvənd aparılmış və tədbirlər görülmüşdür. Heyvandarlıqda vərəm, brüsellöz, dabaq, manqo, taun yoluxucu xəstəliklərin olub-olmaması ilə əlaqədar qan analizləri götürülmüş, qan nümunələri baytarlıq laboratoriyasında müayinədən keçirilmişdir. Nəticələrə görə birinci rüb ərzində insan həyatı üçün çox təhlükəli olan 11 baş iribuynuzlu, 2 baş xırdabuynuzlu heyvan brüsellözla xəstə olduğu müəyyən edilmişdir. Qeyd edilən həmin xəstə heyvanlar kəsilərək təsərrüfatdan çıxarılmışdır. Dabaq, qarayara, çiçək, quduzluq və sair yoluxucu xəstəliklər müşahidə edilməmişdir. Heyvandarlığın inkişafında damazlıq-seleksiya işləri mühüm rol oynadığına görə bu sahəyə xüsusi önəm veririk. Belə ki, qaramal cinslərinin tərkibini məhsuldar heyvanların hesabına yaxşılaşdırmaq məqsədilə mütərəqqi üsullardan geniş istifadə edirik. Son 4-5 il ərzində heyvandarlıqda geniş tətbiq olunan süni mayalanma texnologiyası təsərrüfatlarda müsbət nəticələr verməkdədir. Təcrübə göstərir ki, süni mayalanma texnologiyasının tətbiqi yüksək məhsuldar qaramal cinslərinin yaradılması üçün böyük imkanlar yaratmışdır.

Hazırda rayonumuzda fəaliyyətdə olan 6 süni mayalama məntəqəsinin mütəxəssisləri tərəfindən bu ilin birinci rübündə 930 baş inək və düyələrin mayalanması uğurla həyata keçirilmiş və mayalanmış heyvanlardan 710 baş sağlam buzov alınmışdır. Bu da gələcəkdə yüksək məhsuldar heyvanların əldə olunmasına imkan yaradacaqdır. Onu da qeyd edim ki, son vaxtlar süni mayalanmaya fərdi təsərrüfatların da marağı artıb və bu sahədə rayonda fəaliyyət göstərən baytarlıq məntəqələrinin mütəxəssisləri əhali arasında süni mayalanmanın səmərəliliyi ilə əlaqədar maarifləndirmə işlərini aparır.

Bizi görülən işlər arxayınlaşdırmır. Gələcəkdə də malqaranı, davarları və digər heyvanları iti yoluxucu xəstəliklərdən qorumaq məqsədilə geniş tədbirlər planı hazırlamışıq və bu tədbirləri baytarlıq idarəsinin yığıncağında mütəxəssislərlə birlikdə müzakirə etmişik.

**B. ABDURAHMANOV,**
**rayon baytarlıq idarəsinin rəisi.**

# Buma mavi qaz kəməri çəkilir

Bum qəsəbə sakinlərinin uzun illərdən bəri gözlədikləri sevincli günlər artıq gəlib çatmışdır. Bir neçə aydan sonra isə bumluların müqəddəs arzusu çin olacaqdır.

Bəli, Bum qəsəbəsinə mavi qaz kəməri çəkilişi bu gün sürətlə davam etdirilir. Bu çətin və şərəfli işi MRC tikinti təşkilatı öz öhdəsinə götürmüşdür. İşin gedişi ilə daha yaxından tanış olmaq üçün iş icraçısı Razi Səlimovla görüşüb söhbət etdim.

Məlum oldu ki, bu kampaniyaya 5 briqada cəlb edilmişdir. Bu gün işin gedişi göstərir ki, kollektiv vədinə layiqincə əməl edəcəkdir. İşin ahəngdar getməsində ekskavatorçu Turqay İbrahimovun əməyi xüsusilə qeyd olunmalıdır. Qaynaqçılardan baş qaynaqçı Şahin Ağayev, Azad Zeynalov, Natiq Mustafayev, Faiq Əliyev, Rövşən Nəsibov işin keyfiyyətli görülməsində fədakarlıq göstərirlər. Çilingərlərdən Amil Məmmədovun, Ceyhun Əzizlinin, İman Əzizovun, İzzət Hüseynlinin və Asif Bəyverdiyevin də nümunəvi və keyfiyyətli işləri danılmazdır.

Fəhlələrdən Fəxri Ebişov, Ramin Məhəmmədiyyəli, Əli Məmmədli, Pərvin Məmmədov, Zaur Eyyubov və başqaları da gündəlik iş normasına əməl edir, boşdayanma hallarına yol vermirlər. Qəsəbə sakinləri işin sürətindən razılıq edirlər.

İş icraçısı Razi Səlimov işin keyfiyyətli və mütəşəkkil getməsinə ciddi nəzarət edir. Aldığımız məlumata görə ilin sonuna qədər bumluların evlərində mavi qaz alovlanacaqdır.

**Emin BARATOĞLU,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü.**

# Yol və su xətti təmir edildi

Həmzəli, Cığatelli və Xırxatala kəndlərini qovuşduran nəqliyyat yolu bərbad vəziyyətdə idi. Uzun illər ərzində baxımsızlıq ucbatından bu yolda yaranmış çətin vəziyyət avtomobil nəqliyyatının hərəkətində problemlər yaradırdı. Belə çətinlik hər üç kəndin əhalisinin haqlı narazılığına səbəb olmuşdur. Uzunluğu 6 kilometrə yaxın olan həmin yolun təmir olunması bələdiyyə qurumunun yeni seçilmiş rəhbəri İsrafil Mustafayevin diqqətindən kənarda qalmadı. Onun təşəbbüsü və təşkilatçılığı ilə yola qum və çınqıl daşındı və avtoqreyderlə hamarlandırılaraq yol qaydaya salındı. Bundan əlavə İsrafil Mustafayevin dediyinə görə Həmzəli kəndində 60 paqonmetr içməli su xətti təmir edilmişdir. Bələdiyyə sədrinin gördüyü işlərdən hər üç kəndin camaatı razılıq edir.

**«Qəbələ».**